

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 223 (23.385)

*27 noyabr 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, Rusiyanın və NATO-nun ali hərbi komandanlığının Bakıda görüşlər keçirməsi yaxşı bir ənənəyə çevrilib. Biz bunu yüksək qiymətləndiririk.

Görüşdə tərəflər beynəlxalq və regional təhlükəsizlik problemlərini, həmçinin hərbi və hərbi-texniki əməkdaşlığın aktual məsələlərini, o cümlədən müdafiə idarələrinin Xəzərdə qarşılıqlı fəaliyyətini müzakirə ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da NATO-nun Hərbi Komitəsinin sədri Ser Stüart Piiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.



## R.F.Əliyevin Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rauf Feyzulla oğlu Əliyev Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 26 noyabr 2019-cu il*

## Kompleks quruculuq işləri davam etdirilir

*Son illər Ordubad rayonunda əhalinin firavan yaşayışının təmin olunması üçün həyata keçirilən tədbirlərin nəticəsidir ki, abadlıq və quruculuq işlərinin həcmi daha da genişlənib. Hazırda Ordubad şəhərində içməli su və kanalizasiya sistemlərinin, Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Kənddaxili yollar təmir olunur, kommunikasiya xətləri yenilənir. Ordubad-Culfa magistral yolu əsaslı şəkildə yenidən qurulur.*



Rayonun ən böyük yaşayış məntəqələrindən biri olan Vənənd kəndinə də quruculuq işlərindən pay düşüb. Belə ki, kənddə yeni tam orta məktəb, musiqi məktəbi, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası inşa olunur. Həmçinin Ordubad şəhərində zirzəmi ilə birlikdə 8 mərtəbəli yeni yaşayış, Anaqut kəndində isə məscid binalarının tikintisi davam etdirilir.

Anaqut kəndində inşa olunan məscid binası 255 kvadratmetr ərazini əhatə edir. Bu ünvanda tikinti işləri, demək olar ki, başa çatdırılıb, məscidin minarəsinə mərmər üzlük çəkilir. Binanın ətrafında 1000 kvadratmetr ərazidə səkilər və pilləkənlər düzəldilib, buraya gələn avtomobil yolunun ətrafı abadlaşdırılıb, yola asfalt örtük salınıb.

Bu ilin yaz aylarından başlayaraq Vənənd kəndində həyata keçirilən kompleks quruculuq işləri çərçivəsində 3 mərtəbəli musiqi, 432 şagird yerlik 2 mərtəbəli tam orta məktəb binalarının, 2 mərtəbəli kənd mərkəzinin, həkim ambulatoriyasının və xidmət mərkəzinin tikintisində əsas işlər başa çatdırılıb. Bu ünvanlarda inşaat işlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər.

Ordubad-Naxçıvan magistral avtomobil yolunun Dəstə kəndi istiqamətindən Vənənd kəndinin qurtaracağınadək mövcud olan avtomobil yolu genişləndirilərək asfalt salınıb. Vənənd kəndinin qurtaracağından Dırnıs kəndinədək olan avtomobil yolu isə genişləndirilir, çaladoldurma işləri həyata keçirilir.

50 kilometrlik Culfa-Ordubad magistral avtomobil yolunda da əsas işlər tamamlanıb, yollara asfalt örtük salınıb. Hazırda həmin yolun Əylis-Ordubad istiqamətində asfaltsalma işləri davam etdirilir, Ordubadçayın üzərində isə 2 körpü inşa olunur.

Ordubad şəhərinin Heydər Əliyev prospektində inşa olunan yaşayış binasında isə tikinti işləri, əsasən, başa çatıb. Hazırda həmin ünvanda daxili divarların hörgüsü və suvaq, eləcə də fasad divarının suvanması işləri həyata keçirilir.

**Abbas SEYİD**

## Moskvada "X Rusiya-Azərbaycan Regionlararası Forumu" keçirilmişdir

*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin dəstəyi ilə 22-23 noyabr tarixlərdə Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində ənənəvi "X Rusiya-Azərbaycan Regionlararası Forumu" keçirilmişdir.*

Forumda hər iki ölkənin dövlət təşkilatlarının rəsmiləri və iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlar iştirak etmişlər. Noyabrın 23-də forum işini Moskvadakı "Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi" Sərgi-Kompleksindəki "Kosmos" pavilyonunda davam etdirmiş, həmin gün "Azərbaycan" pavilyonunun da açılışı olmuşdur.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev, sahibkarlıq subyektlərindən isə "Dizayn Holdinq" Kommersiya Şirkətlər İttifaqının, "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının, "Danyeri dondurmaları" müəssisəsinin, "Dekor Qrup" MMC-nin nümayəndələrinin iştirakı təmin edilmişdir.

Muxtar respublikadan olan nümayəndə heyəti forum çərçivəsində keçirilmiş müxtəlif tədbirlərdə iştirak etmiş, yerli və xarici tərəfdaşlarla müzakirələr aparmışdır.

Forumun yekununda Azərbaycan ilə Rusiya arasında iqtisadi sahədə əməkdaşlığa dair yeddi sənəd imzalanmışdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## 2019-cu ilin yanvar-oktyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2019-cu ilin yanvar-oktyabr aylarında 2 milyard 234 milyon 729 min 600 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur. Bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz artaraq 4883,6 manat olmuşdur.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 846 milyon 794 min manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2019-cu ilin yanvar-oktyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 850 milyon 973 min manat vəsait yönəldilmişdir. Bu da bir il öncəki göstəricidən 1,2 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 792 milyon 216 min 500 manatı və ya 93,1 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2019-cu ilin yanvar-oktyabr aylarında 409 milyon 327 min 800 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 20451,5 ton, süd istehsalı 78398,2 ton olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,6 faiz, süd istehsalı isə 1,5 faiz artmışdır.

* * *

2019-cu ilin yanvar-oktyabr aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 45 milyon 313 min 100 manat olmuşdur. Bu da 2018-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 2,8 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 37 milyon 15 min 700 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,9 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2019-cu ilin yanvar-oktyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 113 milyon 407 min 300 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,6 dəfə çoxdur. Verilmiş kreditlərin 12 milyon 459 min 700 manatı və yaxud 11 faizi qısamüddətli, 100 milyon 947 min 600 manatı və yaxud 89 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunur. Bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir. 1 noyabr 2019-cu il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 83 min 891-ə çatmışdır ki, bunun da 74 min 23-ü və ya 88,2 faizi aktiv hesablardır. 2019-cu ilin yanvar-oktyabr aylarında açılmış 24 min 162 bank hesabının 24 min 84-ü aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 noyabr 2019-cu il tarixə 1278-ə çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2019-cu ilin yanvar-oktyabr aylarında 380 milyon 853 min 900 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 331 milyon 29 min 900 ABŞ dolları təşkil etmiş, 281 milyon 205 min 900 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2019-cu ilin yanvar-sentyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 462,7 manat təşkil etmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 7,6 faiz çoxdur.

* * *

1 oktyabr 2019-cu il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3437 nəfər artaraq 458 min 725 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

*Dünya iqtisadi sistemində gəlirlilik baxımından mühüm yer tutan sahələrdən biri də tütünçülükdür. Tütündən istifadə insan sağlamlığı üçün zərərli hesab edilsə də, ondan imtina azalmır, əksinə, dünya statistikasına görə hər bir ölkənin buna ehtiyacı var. Bu ehtiyacı ödəmək isə tütünçülüyün inkişaf etdirilməsini zəruri edir. Buna görədir ki, hazırda tütün istehsalı ilə məşğul olan ölkələr böyük həcmdə valyutalar qazanırlar. Ölkəmizdə də bu sahənin inkişafı keçmiş SSRİ dövründən diqqət mərkəzində olub. Vaxtilə tütün iqtisadi əhəmiyyətinə görə Azərbaycanda pambıqdan sonra ikinci texniki bitki hesab olunub.*




## Tütünçülüyün inkişafı diqqət mərkəzindədir

### *Bu il muxtar respublikada 70 tondan çox quru tütün tədarük edilib*

Ötən əsrin 70-80-ci illərində ölkəmiz tütün istehsalına görə keçmiş ittifaq ölkələri arasında Moldova və Ukraynadan sonra üçüncü yeri tuturdu. Məhz həmin dövrdə ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu aqrar siyasət nəticəsində Azərbaycanda tütünçülük sürətlə inkişaf etdiriləcək bu sahənin böyük sənaye potensialı yaradılmışdı. 1986-cı ildə ölkəmizdə 16,7 min hektar sahədən rekord miqdarda – 65 min ton tütün istehsal olunmuşdu. Bununla yanaşı, aparılan təcrübələr onu göstərmişdi ki, ölkəmizdə tütünçülüyün inkişafı 21 rayona uyğun olsa da, bu məhsulun ən yaxşı göstəriciləri Şəki-Zaqatala bölgəsində və Naxçıvan Muxtar Respublikasında əldə olunur. Lakin ötən əsrin sonlarına doğru muxtar respublikanın blokada vəziyyətinə salınması digər kənd təsərrüfatı sahələri ilə bərabər, tütünçülüyün də inkişaf etdirilməsini sonlandırmışdı.

Maraqlı məqamlardan biri də odur ki, Sovetlər Birliyi dağıldıqdan sonra Dünya Bankı ilə birlikdə ölkəmizdə aqrar sektorla bağlı layihələrin işlənməsinə, treninqlər aparılmasına, kreditlər verilməsinə baxmayaraq, tütünçülük sektoru arxa planda qaldı. Dünya Bankının ekspertləri səbəb kimi tütünün sağlamlığa zərərini göstərir və bunu siqaretə qarşı mübarizədə addım kimi qələmə verirdilər. Ancaq burada məqsəd tamamilə başqa idi. Artıq getdikcə dünya iqtisadi bazarına nəzarət edən güclər bu gəlirli sahəni öz əllərində saxlamaq istəyirdilər. Məhz həmin dövrdə ABŞ-da tütün istehsalı və ixracı xeyli artmışdı, eyni zamanda bu sahədən götürülən gəlirlər də. Ötən dövrdə siqaretə qarşı aparılan mübarizəyə baxmayaraq, tütün istehsalının nəinki azalmadığını, hətta artdığını görürük. Bu səbəbdən də hazırda bir çox ekspertlər inkişaf etmiş ölkələrin tütündən yüz milyardlarla gəlir əldə etdiyini nəzərə alıb bu sahədə yaradılmış monopoliyaya xoş baxmırlar. Hətta yaşayış səviyyəsi aşağı olan ölkələrə ucuz siqaretlərin böyük ixracının səbəbinin yetişdirilən tütünün genetik modifikasiyaya məruz qalması da heç kimə sirr deyil. Bütün bu proseslərin məntiqi nəticəsidir ki, ölkə başçısı cənab İlham Əliyev iki il bundan əvvəl keçirilən respublika müşavirəsində tütünçülüyün inkişafı ilə əlaqədar zəruri tədbirlərin həyata keçirilməsi barədə aidiyyəti qurumlara müvafiq tapşırıqlar verdi. Dövlət başçısı açıq şəkildə bildirdi ki, tütün zərərli məhsul olsa da, əgər özümüzdə yoxdursa, o zaman bunu kənardan idxal etmək məcburiyyətində qalacağıq. Bu zaman isə milyonlarla vəsait xaricə axacaq. Prezident cənab İlham Əliyev həmin müşavirədə qeyd etdi ki, 2021-ci ilə qədər ölkəmizdə tütün istehsalı üçün əkin sahələri iki dəfə genişləndirilməli, təqribən, 6 min hektara çatdırılmalıdır. Hətta bunu da əlavə etdi ki, belə olan halda, orta məhsuldarlıq 2 ton götürülərsə, hər il Azərbaycanda 12 min ton quru tütün istehsal olunacaq və bu, ölkəyə böyük xeyir gətirəcək, valyuta xaricə getməyəcək, əksinə, ixrac imkanları yaranacaq.

Qeyd etmək yerinə düşər ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" artıq bu dövrdən başlayaraq tütünçülüyün inkişafı sahəsində yeni imkanlar açdı.






Naxçıvan Muxtar Respublikasında da bu ənənəvi sahənin inkişafı üçün lazımi addımlar atıldı. Belə ki, ilk olaraq 2017-ci ildə Kəngərli rayonunun Təzəkənd və Xıncab kəndlərində təcrübə məqsədilə tütün əkini aparıldı. "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqı tərəfindən rayonun həmin kəndlərində, əsasən, "Virciniya", "Oriental" və "İzmir" tütün sortlarına üstünlük verildi. Həmin ilin oktyabr ayında Tütün Yetişdirmə Təsərrüfatı da fəaliyyətə başladı. Təsərrüfatın ərazisində istixanalar, yeraltı su anbarı, tütünqurutma yeri və anbarlar yaradıldı. Həmin il 12 tona yaxın quru tütün istehsal olundu. Növbəti ildə isə tütün əkilən sahələrin həcmi daha da artırıldı. 2018-ci ildə Şərur, Babək və Kəngərli rayonlarında, ümumilikdə, 41,5 hektar sahədə tütün əkini aparıldı ki, bu da bir il öncəki göstəricidən 32,5 hektar çox idi. 2018-ci ildə 41,5 hektar sahədən 51,5 ton qurudulmuş tütün tədarük edildi. Bu da bir il öncəki göstəricidən 4,6 dəfə çox idi.

Bu günlərdə isə "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının "Cahan Tabak Beynəlxalq" Məhdud Məsuliyyəti Cəmiyyəti ilə yenidən əlaqə saxladıq. Aldığımız məlumata görə, 2019-cu ildə Kəngərli rayonunda 30, Babək rayonunda 18, Şərur rayonunda isə 2 hektar olmaqla, ümumilikdə, 50 hektar sahədə tütün əkini aparılıb. İstərdik ki, adıçəkilən rayonlar üzrə hər hektara düşən məhsuldarlığa da nəzər salaq. Belə ki, məhsuldarlıq Kəngərli rayonunda bir hektara görə 2357, Babək rayonunda 1284, Şərur rayonunda isə 1945 kiloqram təşkil edib. Ümumilikdə isə Kəngərli rayonunda 70 ton 723 kiloqram, Babək rayonunda 23 ton 112 kiloqram, Şərur rayonunda 97 ton 250 kiloqram quru tütün istehsal olunub. Muxtar respublika üzrə cəmi 50 hektardan 97 ton 250 kiloqram quru tütün istehsal edilib ki, bu da 2018-ci ildə əldə olunmuş quru tütündən 46 ton çoxdur.

Qeyd etmək lazımdır ki, bu gün dövlətin göstərdiyi qayğı nəticəsində muxtar respublikada tütünçülər bu sahədən yaxşı gəlir əldə edirlər. Tütünçülüklə məşğul olanlar əkinlərə aqrotexniki qulluq göstərilməsində, şumlama, kağlama və digər işlərdə müasir texnikalardan istifadə edirlər. Son nəticədə isə bu gün muxtar respublikada keyfiyyətli siqaretlər istehsal olunur və bu məhsulların xarici bazarlardakı coğrafiyası ildən-ilə genişlənir. Təkcə elə bu ilin may ayında Bakıda keçirilən "Bakı Ekspo" Sərgi və Toplantı Mərkəzində 25-ci Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisində "Cahan Tabak Beynəlxalq" Məhdud Məsuliyyətli Cəmiyyətinin tütün, qəlyan və siqaret çeşidlərindən ibarət məhsullarına böyük maraq göstərilib. Sentyabrın 20-22-də isə Almaniyanın Dortmund şəhərində dünyanın ən böyük tütün şirkətlərinin təmsil olunduğu "İnterTabac" sərgisində "Cahan Tabak Beynəlxalq" Məhdud Məsuliyyətli Cəmiyyəti "Made in Azerbaijan" brendi altında ölkəmizi təmsil edib. Şirkət sərgidə beynəlxalq səviyyədə rəqabətədavamlı yerli siqaretlərini, Naxçıvan tütünündən hazırlanmış Azərbaycanın ilk yerli qəlyan brendi olan "Shakh" qəlyan tütününü və Naxçıvanda yetişdirilən "Virciniya" və "İzmir" tütün sortlarını sərgiləyib. Sərgilənən bütün məhsullar iştirakçılar tərəfindən maraqla qarşılanıb. Xüsusilə İraq, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Ukrayna, Mərakeş, Suriya, Polşa, ABŞ, Serbiya, Tayvan kimi ölkələrdən yerli məhsullarımıza daha böyük maraq göstərilib.

Bütün bu qeyd olunanları ümumiləşdirərək deyə bilərik ki, tütünçülüyün inkişafı ilə bağlı muxtar respublikamızda mühüm addımlar atılır. "Cahan Tabak Beynəlxalq" Məhdud Məsuliyyətli Cəmiyyəti qısa müddətdə bu sahədə uğurlu nəticələr əldə edərək yerli məhsullarımızı dünya bazarında tanıtmağa və muxtar respublika iqtisadiyyatına töhfəsini verməyə çalışır.

**Səbuhi HƏSƏNOV**

---

## Təbii şəkildə yetişdirilən balıq növləri süfrələrimizi bəzəyir

*Ötən həftənin şənbə günü paytaxt şəhərimizin Xətai küçəsindəki Mərkəzi bazarda təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkasında xüsusi yer ayrılmış ərazidə çoxlu insanın növbəyə dayandığını gördüm. Maraqlanıb burada təzə balıq satıldığını öyrəndim. Bildirdilər ki, balıq tutulmasına icazə verilən mövsümlərdə buradan təzə balıq almaq mümkündür. Neçə ildir ki, naxçıvanlılar bu imkandan istifadə edirlər...*

... Fikrim uzun illər əvvələ, hələ tələbə ikən Naxçıvanda oxuduğum dövrə getdi. Həmin illərdə pərakəndə halda tutulan və sanitar tələblərə cavab verməyən yerlərdə satılan balıqları almaq məcburiyyətində qalırdıq. Ancaq bu, uzun çəkmədi.

Ulu öndərimiz Heydər Əliyev Naxçıvana gəldikdən sonrakı dövrdə bizim üçün xəyal kimi görünən bir çox problem qısa zamanda həll edildi. Dahi şəxsiyyətin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi, məqsədyönlü islahatların aparılması mühüm nailiyyətlərin əldə olunmasına geniş imkanlar açdı. O cümlədən balıqçılığın inkişaf etdirilməsinə şərait yaradıldı. Arpaçayda, Arazda, su anbarlarında qiymətli balıq növləri yetişdirilməyə başlanıldı. Bu sərvətlərimizin ciddi şəkildə qorunması üçün görülən tədbirlər artıq bu qiymətli nemətin çoxaldılmasına imkan verib. Əhalinin keyfiyyətli balıq məhsullarına olan tələbatının ödənilməsi, son nəticədə, ərzaq təhlükəsizliyinin təmin olunmasında digər sahələrlə yanaşı, balıqçılıq təsərrüfatlarının da rolunun artırılması məqsədi daşıyır. Ona görə də muxtar respublikada balıq və digər su resurslarının qorunması, bərpa və mühafizəsinə xüsusi diqqət yetirilir.

Bu gün muxtar respublikamızda fəaliyyət göstərən balıqçılıq təsərrüfatları əhalinin balıq məhsullarına olan tələbatının davamlı şəkildə ödənilməsinə nail olmağa çalışırlar. Müxtəlif balıq növlərinin təbii halda yetişdiyi çay, göl və su anbarlarımız xüsusi şəkildə mühafizə olunur. Hazırda Naxçıvanda nadir və nəsli kəsilməkdə olan balıq növlərinin əldə edilməsi məqsədilə süni və təbii göllərdə dünya təcrübəsinə əsaslanmaqla balıq yetişdirilir. Əvvəllər "akvakultura" adlanan göl balıqçılığı diqqətdən kənarda qalmışdırsa, indi bu balıqçılıq növünə də xüsusi diqqət yetirilir, balıq yetişdirən və balıqçılıq məhsulları istehsal edən müəssisələr formalaşır. Görülən işlər dövlətimizin bu sahəyə diqqət və qayğısından xəbər verir.





Məhz bunun nəticəsidir ki, 4 il bundan öncə – sentyabr ayının 10-da muxtar respublika rəhbərinin iştirakı ilə Naxçıvan "Balıqçılıq Təsərrüfatı" üçün yeni kompleks istifadəyə verilib, bununla da əhalinin keyfiyyətli balıq məhsulları ilə təminatı sahəsində əhəmiyyətli dəyişikliklər olub.

Ötən günlərdə bu sahədə görülən işlərlə tanış olmaq üçün Naxçıvan "Balıqçılıq Təsərrüfatı"na yollandıq.

Naxçıvan şəhərində Araz çayına yaxın bir ərazidə yerləşən kompleksdə öyrəndik ki, sovetlər dövründə yarıtmaz binalarda, köhnə avtomobillərlə və kiçik imkanlarla fəaliyyət göstərən kollektiv üçün bu gün müasir tələblər səviyyəsində şərait yaradılıb, balıqçılığın inkişaf etdirilməsi məqsədilə geniş imkanlar açılıb. Məlumat aldıq ki, Naxçıvan "Balıqçılıq Təsərrüfatı"nın əsas vəzifəsi balıq ovlanması ilə yanaşı, həm də balıq yetişdirilməsidir. Bunun üçün kompleksdə 40 qapalı hovuzun hər birində 25 min olmaqla, il ərzində 1 milyon balıq yetişdirilməsi nəzərdə tutulub. Hovuzlar balıqların çoxalıb böyüməsi üçün zəruri mikrobioloji mühitlə təmin olunub, bunun üçün avadanlıqlar quraşdırılıb. Bu da imkan verir ki, muxtar respublikanın su hövzələrində balıq artırılması mövcud hövzələrimizin bioloji xüsusiyyətlərinə və əhalinin tələbatına uyğun şəkildə yerli imkanlar hesabına mümkün olsun. Müşahidələrimizə əsaslanaraq deyə bilərik ki, muxtar respublikamızın Heydər Əliyev, Araz, Arpaçay və Uzunoba Su anbarları kimi iri su hövzələrində öz fəaliyyətini genişləndirən Naxçıvan "Balıqçılıq Təsərrüfatı" qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün yaradılmış şəraitdən lazımınca istifadə etməyə çalışır.

Qeyd edək ki, Naxçıvanın su hövzələrindən tutulan çəki, suf, xəşəm, naxa, qalınalın, dabanbalığı kimi balıq sortlarına mövsüm ərzində böyük tələbat vardır. Bu tələbatı ödəyə bilmək üçün mövcud hava şəraitindən istifadə edərək gün ərzində lazım olan həcmdə balıq ovlanır. Şəhərdə keçirilən kənd təsərrüfatı yarmarkalarında adıçəkilən təsərrüfat fəal iştirak edir. Su hövzələrindən gündəlik ovlanan balıq Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində 2008-ci ildən fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində laboratoriya analizindən keçdikdən sonra satışa göndərilir. Təzə balığın satış məntəqələrinə çatdırılması üçün "Hyundai" markalı avtomobil və 2 ton tutumlu soyuducu kamera vardır.

Təsərrüfatda 31 nəfər işləyir. Balıq ovu mövsümündə iqlim şəraitinə görə işçilər lazımi avadanlıq və xüsusi geyimlərlə təmin olunur, onların təhlükəsizliyi diqqət mərkəzində saxlanılır. Bütün bunlar isə balıqçılara çətinliklərin öhdəsindən gəlməyə imkan verir. Onların bir neçəsi ilə söhbətimizdə bunları söylədilər:

– İstənilən hava şəraitində işləmək üçün vasitələrimiz vardır. Çox minnətdarıq ki, bizim üçün bu cür şərait yaradılıb. Əsas ona diqqət yetiririk ki, kiçik və lazımi çəkiyə uyğun gəlməyən balıqları ovlamayaq. Axı bu sərvət, təkcə bu gün deyil, gələcəkdə də insanların karına gələcək. Elə buna görə də daim balıq ovunun qaydalarına ciddi əməl edəcəyik.

**Ramiyyə ƏKBƏROVA**

Naxçıvan Dövlət Tarix Muzeyi – 95

# Minilliklər sığan muxtariyyət yaşlı ünvan



*Bu ünvan muxtariyyətimizlə eyni – 95 yaşda olan, lakin qədim Naxçıvanımızın neçə-neçə minilliklərinin sığdığı Naxçıvan Dövlət Tarix Muzeyidir. Bu ünvanın həyətindəki daş fiqurlardan tutmuş muzeyin qapısından içəriyə girdiyim andan qarşılaşdığım bütün guşələr, eksponatlar, tablolar, rəsmlər məni minilliklər öncəyə uzun bir səyahətə – beşminillik yaşı olan qədim Naxçıvanımızın bu günündən dünəninə aparır. Bu virtual aləm illərlə kitablardan oxuduğum qədim və möhtəşəm tarixin bütün dövrlərinin insanına çevirir məni.*

Budur, eramızdan əvvəl III minillikdəyəm. Nuh tufanının uğultuları çınlayır qulaqlarımda. Bu tufanın sakitləşərkən yer üzünə bəxş etdiyi Naxçıvanın tarixi həmin tufanın Gəmiqayadan, Duzdağdan qopardığı daşlara və sal duz parçalarına həkk olunub. O daşlar, duz parçaları dilə gəlib günümüzə minilliklər öncədən söhbət açır, Ulu Yaradanın Naxçıvana bəxş elədiyi Duzdağ möcüzəsindən, Qazma mağarasından, Nuh Peyğəmbərin torpağa endirildiyi ehtimal olunan Gəmiqayadan danışır. Gəmiqaya daşlarının üzərinə insanların həkk etdikləri təxəyyül məhsulları – təsvirlər onların zəkasını duz sallarının füsunkar parıltısında əks etdirir.

Qarşıda, sanki Gəmiqayadan sıldırımlıq alan Əshabi-Kəhf tarixin minilliklərindən boylanır. Neçə yüzilliklərdir, Tanrıya sığınan, niyyət və arzularının gerçəkləşməsinə ümid edən, inamı ilə pənah gətirən insanların dəstə-dəstə axışdığı bu dini-mədəni abidə İslam mədəniyyətinin beşiyi olan Naxçıvanın müqəddəs torpaqlarından, bu torpaqların tarixin neçə-neçə hadisələrinə şahidliyindən söhbət açır.

Əcdadlarımızla yaranan ilk insan cəmiyyətinin formalaşması “İbtidai insanların maketi”, “İbtidai insanların məişəti”, “Odun əldə edilməsi” adlı 3 qrafik əsərlə, bineyi-qədimdən zəhmətsevər olan insanların əmək alətləri, məişət əşyaları ilə ibtidai icma quruluşunun canlı mənzərəsini yaradır. İnsanların odu necə əldə etmələri kimi təsəvvürləri kətan üzərinə yağlı boya ilə həkk edən Toğrul Nərimanbəyovun “İbtidai insanların ov səhnəsi” adlı əsəri möhtəşəmliyi və canlılığı ilə diqqətlə baxdıqda səni oradakı obrazlardan birinə çevirmək gücündədir.

Eramızdan əvvəl III və II minilliklərin sonlarını əhatə edən Şahtaxtı və Yaycı kəndlərinin ərazilərindən tapılan monoxrom və II Kültəpə ərazisindən aşkar olunan, IV-III minilliklərdə Kür-Araz mədəniyyətini əks etdirən manqal, polixrom, həm də ağızlarında heyvan başları təsvir olunmuş boyalı qablar, II minilliyin sonuna aid tunc bəzək əşyaları, boz rəngli qablar bu böyük dövrlərə kiçik səyahətdə həmin əsrlərdə yaşayan insanların təfəkkür, dünyagörüş və zövqünü gözlər önündə sərgiləyir. Eradan əvvəl II minilliyə aid təsərrüfat küpləri, keramika məmulatları – kəmər, silahlar, bizlər, əqiq muncuqlar və boyunbağılar, III minilliyə aid gürz və çəkiclər, daş həvənglər, dəstər, IV minilliyə məxsus ocaq qurğuları, dən daşları, I əsrə –Dəmir dövrünə məxsus xəncərlər, ətir saxlamaq üçün şüşə qablar zaman-zaman insanların təxəyyüllərinin inkişafından, dünyagörüşlərindən “söhbət açır”.

Son Tunc, Erkən Dəmir dövrlərində Şahbuz rayonu ərazisindən tapılan qəbir abidələri – daş qutu qəbir modeli, küp qəbir və kurqanlar insanların İslamdan əvvəl hansı şəkildə dəfn olunduqları haqqında geniş və maraqlı məlumat verir.

Şahbuz rayonunun Kolanı kəndi ərazisindən əldə edilmiş böyük daş üzərində Günəşin sxematik təsviri, Zəngəzur mahalının Urud kənd qəbiristanlığından tapılmış XV-XVI əsrlərə aid sənduqələr, Naxçıvan şəhər qəbiristanlığında rast gəlinən, üzərində müqəddəs “Qurani-Kərim”dən ayələr həkk olunan epiqrafik abidə, məzarüstü Gəmiqaya təsvirlərini yaradan insanların davamçılarının sonrakı əsrlərdə düşüncə və idraklarının daşlarda yeni əksidir, sanki.

Minilliklərə səyahətim məni XII əsrə – Əcəmi Əbubəkr oğlu Naxçıvani dövrünə gətirib çıxarır. Böyük memarın gözəl diyarımıza bəxş etdiyi bir-birindən gözəl abidələr arasında dolaşıram. Tarixin izləri üzərinə həkk olunan Möminə xatın məqbərəsindən, Yusif Küseyir oğlu türbəsindən, Cümə məscidindən Memar Əcəminin: *“Biz gedirik, ancaq qalır ruzigar, biz ölürük, əsər qalır yadigar”* kimi dəyərli fikirlərini eşidirəm. Naxçıvan memarlıq məktəbini yaradan bu bənzərsiz memarın tarixi abidələrin tikintisində istifadə etdiyi inşaat materialları parçalarının keyfiyyəti, rəng çalarları qarşısında heyranlıq duyuram. Bu arada nəzərimi cəlb edən rəssam Eyyub Hüseynovun kətan üzərində yağlı boya ilə işlədiyi “Möminə xatın məqbərəsinin layihəsinin müzakirəsi” adlı əsəri ilə, sanki əsrlər öncəyə qayıdır, bu layihəni müzakirə edənlərə qoşulur və tarixdə iz qoyanlardan birinə çevrilir insan.

XIV əsrə doğru yolçuluqda Naxçıvanımın memarlıq abidələrini özündə əks etdirən Telman Abdinovun “Naxçıvan abidələri” əsəri qarşısında xeyli vaxt dayanmalı oluram. Bir-birindən möhtəşəm, bu diyarın tarixi, qədimliyi, kimliyi üzərinə həkk olunan abidələri dünənimizdən bu günümüzə bir ərməğandır. Şamil Qazıyevin “Naxçıvanqala” əsəri, Qarabağlar türbəsinin maketi, bütün abidələrimizin rəsmləri “dil açıb” minilliklərdən soraq verir. XII-XIV əsrlərə aid şirli qablara isə sanki möhtəşəm abidələrimizin üzərindəki naxışların kiçildilmiş forması həkk olunub. Tamamilə təbii boyalarla və rəngarəng çalarlarla işlənən nəfis, neçə-neçə yüzilliklər sonra olduğu kimi qalan naxışlar dövründə şirli qabların yaratdığı böyük bir mədəniyyəti sərgiləyir.

Budur, ayrıca böyük bir otaq dövlətçilik tariximizin Atabəylərindən, Qaraqoyunlulardan, Ağqoyunlulardan, Səfəvilərindən, Naxçıvan xanlıqlarından “söhbət açır”. Dövlət və xanlıqlara aid xəritə nümunələri ayrı-ayrı yüzilliklərin yol bələdçisinə çevrilərək insanı bu dövrlərin, dövlətlərin qonağı edir. Fotoşəkillər, rəsmlər, dövlət və xanlıqlar, Gürcüstan-Türkmənçay müqaviləsi haqqında məlumatlar, həmin dövrlərə aid pul-sikkə, silah nümunələri və bir də hər səhifəsi tarix qoxan kitablar böyük bir keçmişin müasir dövrdə inikasıdır.






Ayrı-ayrı dövrlərin dövlət və xanlıqlarının hər birinin ictimai-siyasi aləmində, gündəlik həyatında “iştirak etdikdən” sonra XVIII-XIX əsrlərin azərbaycanlı ailələrindən birinin qonağı oluram. Həmin dövrləri gözgü kimi özündə əks etdirən otaqları gəzirəm. Qadınlarımızın ağ parça üzərinə ipək saplarla min bir naxış vurduqları örtüklər salınan və üzərinə çıraq, həvəng, məşqəfə dəsti, ələk, məcməyi, qazan, mis cam, kəfkir və digər əşyalar düzülən taxçalar, divarlarda gözlərinin nurunu ilmələdikləri xalçaların üzərindən asılan silah nümunələri, musiqi alətləri indi də kəndlərimizdə baba-nənə evlərimizdə hələ də yaşadılanları xatırladır mənə. Ətrafdakı sandıq nənələrin gizli saxlanc yerindən, samovar tüstü qalxan həyat dolu həyətlərdən, yun daramaq, əyirmək üçün daraq, cəhrə buradakı rəngbərəng xalça, cecim, palazların necə hasilə gəlməsindən “danışır”.





Çox böyük təəssüratlarla bu evdən ayrılarkən qarşımda vəlin, kotanın, car-carın, kürüyün bu gözəl diyarımızda formalaşdırdığı qədim əkinçilik mədəniyyətinin mənzərəsi açılır. O dövrlərdən yadigar qalan araba təkərlərinin torpağa saldığı, atababalarımızın əllərindəkinə bənzər izlər həm də tarixən əsas məşğuliyyəti əkinçilik olan insanların torpaq sevdasını canlandırır gözlər önündə. At yəhəri, çəki tərəziləri isə at belində sübh çağından əkinə-biçinə yollanan insanlardan bizə miras qalan zəhmətkeşlikdən, halallıqdan, dürüstlükdən söhbət açır.

Bayaqdan gözlərim önündə canlanan və maraqla baxdığım XIV əsrdən ta ki XX əsrədək dövrləri əhatə edən müxtəlif əşyalar ayrı-ayrı dövrlərin hər birinin cəmiyyətinin insanlarının həyat tərzini ifadə etməklə yanaşı, həm də təfəkkürlərinin bəhrələridir.

Azərbaycanın qədim xalçaçılıq məkanı və yallılar diyarı olan Naxçıvanımızın yüzilliklərindən neçə-neçə xalçalar gəlib keçmiş, bir eli başına toplayıb onlara bu milli rəqsimizin sirlərini ritm-ritm öyrədən yallı başçıları, ifaçıları yaşayıb köçmüşlər. Məni keçmişə qonaq edən Naxçıvan qrupu xovlu və xovsuz xalçaların ilmələri, toxuculuq alətləri – cəhrənin cırıltısı, qılıcın, kələfaçanın tappıltısı “söyləyir” bunları. Dağı-daşı lərzəyə gətirən Naxçıvan yallılarını müşayiət edən tulumun, balabanın, neyin, qara zurnanın səsləri, bir də yallı geyimlərinin nümunələri “söhbət açır” onlardan.

Bu da tariximizin XX əsri... Yüzilliyin ilk onilliyindən boylanan qocaman Molla Nəsrəddin insanları elmə, müasirliyə, doğma dil uğrunda mübarizəyə, haqq-ədalətə səsləyir. Mətbuat tariximizdə özünəməxsus yeri olan “Molla Nəsrəddin” jurnalını vərəqlədikcə onun səhifələrində Naxçıvanımızın doğma Vətənimizə bəxş etdiyi şəxsiyyətlərdən biri olan millət cəfakeşi Cəlil Məmmədquluzadənin dahi obrazı canlanır.

XX əsrin ən böyük hadisəsi – Şərqdə ilk demokratik qurum olan Azərbaycan Xalq Cümhuriyyətinin xəritə, bayraq və gerbi, eləcə də pul nümunələri, fotoşəkilləri ilə 100 il öncəyə səyahət edirəm. Xalqımızın müstəqillik uğrunda mübarizə və qələbəsinin şanlı “ömür kitabını” azadlığımıza uzanan qara niyyətli əllərin vərəqləyib 23-cü ayında qəsdinə dayandıqlarının şahidi oluram.

Budur, Qars, Moskva müqavilələrinin imzalanmasında və hərb tariximizdə xüsusi xidmətləri olan Kazım Qarabəkir Paşanın fotosu, haqqında yazılan kitablar ötən yüzilliyin çoxsaylı hadisələri içərisində onu ön sıralara çəkir.

Yaşanan tarixin bir parçası olan 1941-1945-ci illər müharibəsində naxçıvanlı oğulların şücaəti, qəhrəmanlıqları onların aldıqları medallarda, istifadə etdikləri əşyalarda, bir də ki, yazdıqları əsgər məktublarında “dil açır”.

20 Yanvar faciəsinin, Sədərək şəhidlərinin, ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasətini əks etdirən fotoşəkillərin fonunda – Mir Cəlil Seyidovun “Təcavüzkar” adlı rəsm əsəri ürək göynərtilərini daha da dərinləşdirir, mübariz ruhla qan yaddaşını təzələyir.

Dəqiqələrlə məni qarşısında dayanıb tamaşa etməyə vadar edən Şamil Qazıyevin “İnqilabaqədərki Naxçıvan”, “Naxçıvanda köhnə həyat”, “Çarıqçılar iş başında”, “Çörək bişirənlər”, “Köhnə dəyirman”, “Xırmanda”, “Öküzlərin nallanması”, “Naxçıvanda hamam” və bu cür 29 rəsm əsərinin hər biri ayrı-ayrılıqda Naxçıvan tarixini, etnoqrafiyasını, milli dəyərlərini fırçanın gücü ilə ifadə etməklə adamı həmin dövrlərin siyasi və ictimai həyatının iştirakçısına çevirir.

Tarixi yaşadan bu məkan Azərbaycan xalqının xilaskarı ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotoşəkillərlə, kitab və dəyərli materiallarla, əşyalarla, “Şərəfli ömrün anları” adlı stenddə toplanmış bənzərsiz ömrün bənzərsiz fotoları ilə daha da əlamətdardır. Çünki ulu öndər millətinə müstəqilliyi bəxş etməklə bu minilliklərin, yüzilliklərin tarixinin qorunmasının da səbəbkarı oldu.

Bu xoş duyğularla elə ulu öndərin Naxçıvanda tarixi fəaliyyətinin uğurlu davamının bəhrələri əks olunan “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir – Naxçıvan Muxtar Respublikası – 95” adlı stend önündə dayanıram. Ötən 95 ilin son 25 ilinin bütöv bir mənzərəsi var qarşımda. Bu mənzərədə ölkə Prezidentinin və muxtar respublika rəhbərinin Naxçıvanla bağlı verdikləri sərəncam və fərmanlar, quruculuq ərməğanları, muxtar respublikanın həyatına güzgü tutan onlarla kitablar, muxtariyyətimizin yaranmasından bu günədək müxtəlif illər üzrə statistik göstəricilər yer alır. Bütün bunları seyr etdikcə 95 ilin 25-nin ağır yükünü çiyinlərinə götürən, blokada Naxçıvanına inkişaf və tərəqqi sözlərini dəsxəti ilə yazan Ali Məclisin Sədri cənab Vasif Talıbovun bu qədim diyara bəslədiyi ata qayğısı canlanır gözlərim önündə. Bu gəzinti ilə dəfələrlə minilliklərdən dövrümüzə – XXI əsrə gəlib qayıdarkən səyahətimin hər anında görünürdü bu qayğı: O qayğını 1999-cu il fevralın 18-də imzalanan Sərəncamla Heydər Əliyev Muzeyinin yaradılmasında görürəm. 2005-ci il 6 dekabr tarixdə “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” imzalanan Sərəncamla bərpa olunan hər bir abidədə, 2008-ci ildə “Naxçıvan Abidələri Ensiklopediyası”nın nəşr etdirilməsində görürəm. 2017-ci il sentyabrın 12-də “Naxçıvan Duz Muzeyinin yaradılması haqqında” Sərəncamla Naxçıvanın tarixində ilk dəfə belə bir muzeyin yaradılmasında, 2019-cu il mayın 16-da Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında” imzalanmış Sərəncamda görürəm. Tarixi minilliklərə söykənən Əshabi-Kəhf ziyarətgahında dəfələrlə, 2018-ci ildə isə son təmir-bərpa işlərinin aparılmasında görürəm. Muzeydəki qədim xalçaların timsalında 2018-ci il 9 aprel tarixli Sərəncamla təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nda görürəm. “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamda, “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqslərinin” UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilməsində görürəm. Muzeydə sərgilənən tarixin hər anına aid yazılmış elmi, dəyərli kitablarda, qəzet məqalələrində görürəm. Ümumilikdə, qədimdən qədim Naxçıvanımızın minillik və yüzilliklərin hər birinə XXI əsrin töhfəsində görürəm bu qayğını.

*Beləliklə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi haqqında” 2019-cu il 2 avqust tarixli Sərəncamı ilə yubileyini qeyd edən bu zəngin muzeydə minillik və yüzilliklərə virtual səyahətim başa çatır. Təəssüratım: Nə qədər qürurverici bir tarixin çağdaş dövrünün insanlarıyıq. Gəldiyim nəticə: Çağdaş dövrü elə yaşamalıyıq ki, biz də tariximizə nələri isə verək, gələcək nəsillər də bizimlə qürur duysun.*

**Mətanət MƏMMƏDOVA**

# Seçki marafonu

Bələdiyyə seçkiləri – 2019

**23 dekabr 2019-cu il Azərbaycan Respublikasında bələdiyyə seçkiləri günüdür.**

**Hörmətli seçicilər!**

Vətəndaşların və siyasi partiyaların, qanunun yol verdiyi formalarda və üsullarla seçiciləri seçkilərdə iştirak etməyə və ya etməməyə, namizədin, qeydə alınmış namizədin, siyasi partiyanın lehinə və ya əleyhinə səs verməyə çağırışlar formasında seçkiqabağı təşviqat aparmaq hüququ vardır.

**Seçkiqabağı təşviqat – vətəndaşların və siyasi partiyaların seçiciləri seçkilərdə iştiraka, bu və ya digər namizədlərin lehinə səs verməyə (səs verməməyə) çağıran və ya çağırmaq məqsədi daşıyan fəaliyyətdir.**

Bələdiyyə seçkilərində seçkiqabağı təşviqat Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinə uyğun aparılır.

**Seçkiqabağı təşviqat aparmaq hüququna aşağıdakılar malikdirlər:**

- bələdiyyə seçkilərində iştirak etmək üçün qeydə alınmış namizədlər;
- bələdiyyə seçkilərində iştirak etmək üçün namizədi qeydə alınmış siyasi partiyalar;

**Seçkiqabağı təşviqat aşağıdakı üsullarla aparıla bilər:**

- kütləvi informasiya vasitələri ilə;
- kütləvi tədbirlərin (yığıncaqlar və vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və sair) keçirilməsi yolu ilə;
- çap olunmuş, audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə;
- qanunla qadağan edilməyən digər üsullarla.

Kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqat açıq müzakirələr, dəyirmi masalar, mətbuat konfransları, müsahibələr, çıxışlar, siyasi reklamlar, tele və radioverilişlər, videofilmlər formasında və qanunla qadağan edilməyən digər formalarda həyata keçirilir.

Qeydə alınmış namizəd, siyasi partiya seçkiqabağı təşviqatın forma və üsullarını müstəqil müəyyənləşdirir.

***Seçkiqabağı təşviqatın aparılması, seçkiqabağı hər hansı təşviqat materiallarının yayılması aşağıdakılara qadağan edilir:***

- *xarici dövlətlərə və xarici hüquqi şəxslərə;*
- *xarici vətəndaşlara;*
- *vətəndaşlığı olmayan şəxslərə;*
- *18 yaşına çatmamış vətəndaşlara;*
- *seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə Azərbaycan Respublikasının hüquqi şəxsinin nizamnamə kapitalında xarici dövlətlərin, xarici hüquqi şəxslərin, xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin iştirak (mülkiyyət) payı 30 faizdən çox olarsa, Azərbaycan Respublikasının hüquqi şəxslərinə;*
- *beynəlxalq təşkilatlara və beynəlxalq ictimai hərəkatlara;*
- *dövlət hakimiyyəti orqanlarına və bələdiyyə qurumlarına;*
- *dövlət, bələdiyyə təşkilatlarına və idarələrinə;*
- *seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə nizamnamə kapitalında dövlətin və ya bələdiyyənin iştirak payı 30 faizdən artıq olan hüquqi şəxslərə;*
- *hərbi hissələrə;*
- *xeyriyyə təşkilatlarına, dini birliklərə, idarələrə və təşkilatlara;*
- *öz vəzifələrini və ya xidməti vəzifələrini yerinə yetirərkən, həm də vəzifəsindən və ya xidməti üstünlüyündən istifadə etməklə dövlət orqanlarında, idarələrində, təşkilatlarında və ya bələdiyyə orqanlarında və təşkilatlarında vəzifədə olan şəxslərə, dövlət və bələdiyyə qulluqçularına, hərbi qulluqçulara;*
- *seçki komissiyalarına, seçki komissiyasının həlledici səs hüquqlu üzvlərinə və digər vəzifəli şəxslərinə.*

**Seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.**

***

**Səsvermə günü və ondan əvvəlki gün hər hansı seçkiqabağı təşviqat aparmaq qadağandır.**

İctimai teleradio təşkilatları və ya dövri nəşrlərin redaksiyalarının təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olduqda və ya onlar dövlət büdcəsindən maliyyələşdirilərsə, ictimai teleradio təşkilatları və dövri nəşrlərin redaksiyaları qeydə alınmış namizədlərə, siyasi partiyalara seçkiqabağı proqramlarını təbliğ etməkdən ötrü dövlət hakimiyyəti orqanlarının ayırdığı vəsait hesabına bərabər şərait yaradırlar. Göstərilən təşkilatlar qeydə alınmış namizədlərin və siyasi partiyaların lehinə və ya əleyhinə öz təşəbbüsləri ilə seçkiqabağı təşviqat apara bilməzlər. Dövlətə məxsus olan teleradio verilişləri təşkilatları vasitəsilə seçkiqabağı təşviqat aparılmır.

Seçki Məcəlləsinin 77.1 və 77.4-cü maddələrində göstərilən teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları qeydə alınmış namizədlərə və namizədi qeydə alınmış siyasi partiyalara müqavilə əsasında dəyəri ödənilən efir vaxtı və dövri nəşrlərdə yer ayırmaq hüququna malikdirlər.

Ödənişin məbləği və şərtləri müvafiq olaraq qeydə alınmış bütün namizədlər, siyasi partiyalar üçün eyni olmalıdır.

Qeydə alınmış namizədlərə, siyasi partiyalara müvafiq olaraq pulsuz və ya pullu efir vaxtı və ya dövri nəşrlərdə yer ayıran teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada ayrılmış efir vaxtının və ya dövri nəşrlərdə yerin həcminin və dəyərinin qeydiyyatını aparmalı və bu qeydiyyat barədə səsvermə gününə azı 5 gün qalmış və səsvermə günündən ən tezi 5 gün sonra onların qeydiyyatını həyata keçirən seçki komissiyasına məlumat verməlidirlər.

Müvafiq seçki komissiyasının sorğusu əsasında qeydə alınmış namizədlər, siyasi partiyalar ödənişli efir vaxtını və dövri nəşrdə yerin dəyərinin ödənilməsinə razılığı təsdiq edən sənədləri təqdim etməyə borcludurlar.

Bələdiyyə üzvlüyünə namizədlərin seçkiqabağı təşviqat aparmaq məqsədilə Seçki Məcəlləsinin 77.4-cü maddəsində nəzərdə tutulan teleradio verilişləri təşkilatlarının kanallarında pulsuz efir vaxtı almaq hüququ vardır.

Teleradio verilişləri təşkilatlarının təqdim etdikləri pulsuz efir vaxtı qeydə alınmış namizədlər və siyasi partiyalar arasında bərabər şərtlərlə və bərabər həcmdə bölünür.

**Televiziya və radioda seçkiqabağı təşviqat materiallarının verilməsinə dair tələblər**

Qeydə alınmış namizədin və siyasi partiyanın seçkiqabağı təşviqat materiallarının verilməsini malların, işlərin və xidmətlərin reklamları ilə və ya digər proqramların verilməsi ilə dayandırmaq qadağan edilir.

Qeydə alınmış namizədin və siyasi partiyanın seçkiqabağı təşviqat materiallarının Seçki Məcəlləsinin 77.1-ci maddəsində göstərilən teleradio verilişləri təşkilatlarının kanallarında verilməsini digər teleradio proqramlarının verilməsi ilə dayandırmaq qadağandır.

**Qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyə qurumlarının təsis etdikləri dövri nəşrlər təsisçilərin rəsmi materiallarının, məlumatlarının, normativ və digər aktlarının rəsmi dərc edilməsi məqsədi daşıyırsa, onların redaksiyaları seçkiqabağı təşviqat materiallarını və digər materialları dərc edə bilməzlər.**

Dövlət orqanları, bələdiyyə qurumları qeydə alınmış namizədə və siyasi partiyaya vətəndaşlarla görüşlər, açıq müzakirələr təşkil edilməsində və keçirilməsində kömək etməlidirlər.

Qeydə alınmış namizədlər və namizədi qeydə alınmış siyasi partiyalar qanunla müəyyənləşdirilmiş qaydada çap, audiovizual və digər seçkiqabağı təşviqat materiallarını buraxmaq hüququna malikdirlər.

Seçkilərin təyin edilməsi haqqında qərarın dərc edildiyi günədək təsisçiləri (həmtəsisçiləri) dövlət orqanları və ya bələdiyyə qurumları, təşkilatları və idarələri olan, reklam xidmətləri göstərən təşkilatlar dövlət hakimiyyəti orqanlarının, bələdiyyə qurumlarının ayırdıqları vəsait hesabına müvafiq seçki dairələri üzrə qeydə alınmış namizədlərə və siyasi partiyalara seçkiqabağı təşviqat materiallarının yerləşdirilməsi üçün bərabər şərait yaratmalıdırlar.

**Seçkiqabağı çap və audiovizual təşviqat materiallarında bu materialları hazırlayan və hazırlanmasını sifariş edən təşkilatların adı, materialların tirajı və buraxılış tarixi barədə məlumat olmalıdır.**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Mülki Məcəlləsinə uyğun olaraq qeydə alınmış namizədlərin və siyasi partiyaların seçkiqabağı proqramında yığıncaqlarda, kütləvi informasiya vasitələrində yayılan təşviqat materiallarında və çıxışlarda hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar, vətəndaşların şərəf və ləyaqətini təhqir edən mülahizələr olmamalıdır. Bu qadağa Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinə uyğun tətbiq edilməlidir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq seçkiqabağı təşviqat aparılarkən kütləvi informasiya vasitələrindən sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqat formasında sui-istifadə qadağandır.

Azərbaycan Respublikasının Konstitusiyasının 30-cu maddəsinə və Azərbaycan Respublikası Mülki Məcəlləsinə uyğun olaraq əqli mülkiyyət haqqında qanunvericiliyi pozan təşviqat qadağandır.

**Seçkiqabağı təşviqatda bilavasitə, yaxud dolayısı ilə iştirak edən namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyanın və onların səlahiyyətli nümayəndələrinin, habelə digər şəxslərin və təşkilatların seçiciləri aşağıdakı üsullarla ələ alması qadağandır:**

- ✓ *təşkilati işlərin yerinə yetirilməsi məqsədi istisna olmaqla, seçicilərə pul vəsaiti, hədiyyələr və digər qiymətli materiallar vermək (döş nişanları, yapışqanlı nişanlar, plakatlar və nominal dəyərə malik olan digər təşviqat materialları istisna edilməklə);*
- ✓ *göstərilən təşkilati işi yerinə yetirən seçiciləri səsvermənin nəticəsindən asılı olaraq mükafatlandırmaq və ya belə mükafatlandırmanı vəd etmək;*
- ✓ *malların güzəştli satışını keçirmək, hər hansı malı (çap materialları istisna olmaqla) pulsuz vermək;*
- ✓ *əvəzsiz və ya güzəştli şərtlərlə xidmətlər göstərmək;*
- ✓ *seçkiqabağı təşviqat zamanı seçicilərə qiymətli kağızlar, habelə maddi sərvətlər, pul vəsaiti veriləcəyini vəd etmək yolu ilə, habelə qanunvericiliyə zidd olan digər əsaslarla xidmətlər göstərilməsi ilə təsir etmək.*

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

## Ekoloji tədbirlər davam etdirilir



Muxtar respublikanın təbii sərvətlərindən səmərəli istifadənin tənzimlənməsi, flora və fauna ehtiyatlarının qorunması, ətraf mühit komponentlərinə təsirlərin azaldılması və nəzarətdə saxlanılması məqsədilə oktyabr ayında da tədbirlər davam etdirilmişdir. Ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi hallarına qarşı mübarizə aparılması məqsədilə 11 yoxlamareyd keçirilmiş, 2 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbirlər görülmüşdür. Şahbuz rayonunun Kolanı, Ordubad rayonunun Sabir Dizə kəndində ekoloji hüquqi maarifləndirmə tədbirləri keçirilmiş, yaşıllıqların artırılması, çay vadilərinin, sularının qorunması və ailə təsərrüfatlarının inkişaf etdirilməsi yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları haqqında müzakirələr aparılmışdır.

Ötən ay Naxçıvan şəhəri, Kəngərli, Şahbuz, Culfa və Şərur rayonlarının 20-dən çox yaşayış məntəqəsi ərazisindəki mövcud sututarlarda monitorinqlər, Araz və Arpaçayın muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayon ərazisindən keçən "Şir arxından" su nümunələri götürülərək analizlər aparılmışdır. Həmçinin yeni toxmacarlıq sahələrinin yaradılması üçün nəzərdə tutulmuş təpəliklərdə, orta dağlıq və dağlıq ərazilərdə toxumla əkin işləri davam etdirilmiş, 30 hektardan artıq sahədə həmərsin, ardıc, yemişan, badamça toxumları əkilmişdir. Toxum tədarükü məqsədilə 3 min kiloqramdan çox ərik, alma, alça, badam, cəviz toxumu yığılaraq anbarlaşdırılmışdır. Xüsusi mühafizə olunan təbiət ərazilərindən qoruq, milli park və yasaqlıqlarda mühafizə tədbirlərinə diqqət artırılmış, muzey eksponatları zənginləşdirilmişdir.

Bitki və heyvanat aləminin qış aylarında qorunması üçün tədbirlər görülmüş, heyvanların qaba yemə olan tələbatının qismən ödənilməsi məqsədilə 1000 kipdən artıq qaba yem, 1700 kiloqram daşdız tədarük edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Voleybol birinciliyi yekunlaşıb



*Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında keçirilən voleybol birinciliyi başa çatıb.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Voleybol Federasiyası və Əlahiddə Ümumqoşun Ordunun birgə təşkil etdikləri birincilikdə 18 komanda mübarizə aparıb.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən yarışlar 5 gün davam edib. Ümumi nəticələrə əsasən üçüncü yerdə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının hərbi qulluqçuları, ikinci yerdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin voleybol komandası, birinci yerdə isə Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları qərarlaşıb.

Qalib komandalara Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən diplom və kuboklar təqdim edilib.

**Nəriman NƏCƏFOV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ələmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 807